ədalət.-2018.-22 sentyabr.-S.14.



***Zəka Vilayətoğlu***

Bəzən ömür,
yağışda islanmış paltar kimi,
ağırlıq edər sənə,
çıxarıb asmaq istərsən,
zamanın şəridindən,
asmaq istərsən,
gündöyən yerindən.
Çəkilib bir kənarda,
ümidlə gözlərsən,
ömrünü isladıb, ağırlaşdıran,
acıların qurumağını.
Gözlərsən, külək qoparmasın,
sağa-sola yellədib,
qəfil alıb qanadına, aparmasın,
Gözlərsən, gözlərsən,
beləcə unudarsan, hər şeyi,
Gözlərin baxsa, belə,
görməzsən, qarşındakını.
Bu an altdan yuxarı
bir it hoppanar,
hoppanar, hoppanar,
yapışar, ömrünün uclarından,
yapışar, ətəyindən,
Dartdıqca, dartar,
diddikcə, didər,
aşılanmış qoyun dərisi kimi,
can atar, qoparmağa.
Qəfil açılar, ayılar, gözlərin,
yerdən bir daş götürər,
atarsan, itə sarı,
yerindən güllə tək qopar,
bir anda aşar, it hasarı,
hasardan boylanarsan,
ümidsiz, çarəsiz.
özünü sanarsan, qərib,
kimsəsiz,
arxasınca, baxdıqca, baxarsan,
bu itin, bir it yox,
ölüm olduğunu qəfil anlarsan,
itə dönmüş ölümün dişlərində,
ömrün sağa-sola yellənər,
əlin bir yana yetməyəndə,
gözlərindən yaş sellənər,
və qəfil işığı sönmüş gözlərin,
donuq-donuq
qaranlığa zillənər...